# Azərbaycan və Bolqarıstanın Mədəniyyət nazirlikləri arasında əməkdaşlıq haqqında proqram imzalanıb

**İyulun 4-də Mədəniyyət naziri Əbülfəs Qarayev UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Mədəniyyət naziri Boil Banov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Əbülfəs Qarayev qonağa ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, Azərbaycanın zəngin mədəni irsi haqqında geniş məlumat verib. Bildirib ki, ölkə mədəniyyətinin inkişafı və dünyada təbliği istiqamətində dövlət səviyyəsində fəal iş aparılır. Bu sahədə beynəlxalq əlaqələrin daha da inkişafına xüsusi önəm verilir.

Nazir, həmçinin Azərbaycanla Bolqarıstan arasındakı münasibətlərə toxunaraq qeyd edib ki, iki ölkə arasında bütün sahələrdə yaxşı əməkdaşlıq mühiti mövcuddur. Bu mühitin daha da inkişaf etdirilməsində Azərbaycan tərəfi əlindən gələni edəcək.

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Bolqarıstanın Mədəniyyət naziri Boil Banov Azərbaycanın zəngin mədəniyyətə malik olduğunu söyləyib: "Bunun əyani sübutu kimi, Azərbaycanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə ev sahibliyi etməsini və göstərdiyi yüksək qonaqpərvərliyi qeyd edə bilərəm".

İki ölkə arasındakı əlaqələrin inkişafından danışan bolqarıstanlı nazir Azərbaycanla mədəniyyət sahəsində daha sıx münasibətlərin qurulmasında, qarşılıqlı səfərlərin təşkil olunmasında maraqlı olduqlarını diqqətə çatdırıb.



Daha sonra iki ölkənin Mədəniyyət nazirlikləri arasında 2019-2023-cü illər üzrə mədəniyyət sahəsində əməkdaşlıq haqqında proqram imzalanıb.

**AZƏRTAC**

Respublika.- 2019.-5 iyul.- S.3